# “Klassik divan ədəbiyyatında bitki obrazı”



**Aprelin 29-da AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda akademik Zərifə Əliyevanın 101-ci ildönümü və “Yaşıl dünya naminə həmrəylik ili” münasibətilə “Klassik divan ədəbiyyatında bitki obrazı” mövzusunda respublika elmi-praktiki konfransı keçirilib.**

Məclis institutun Türk dünyası əlyazmalarının tədqiqi və Türkdilli əlyazmaların tədqiqi şöbələrinin birgə təşkilatçılığı ilə keçirilib.

Konfransdan öncə Əlyazmalar İnstitutunun Ekspozisiya zalında Əlyazmaların elmi ekspozisiyası və təqdimi şöbəsinin hazırladığı “Əlyazmalarda təbiət motivləri və nəbati elementlər” adlı sərgi nümayiş olunub. Plenar iclası Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli açıb və Azərbaycan elminin ən parlaq simalarından olan, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın 101 illik yubileyinə və “Yaşıl dünya naminə həmrəylik ili”nə həsr olunmuş bugünkü konfransın orijinallığı və aktuallığı ilə seçildiyini bildirib. AMEA prezidenti akademik Zərifə Əliyevanın hər zaman öz zəngin dünyagörüşü və baxışı ilə fərqlənərək Azərbaycanda qadın ziyalıların aparıcı qüvvəsi olduğunu, əsərlərinin bir çox xarici dillərə tərcümə olunaraq yeni oftalmoloq alimlərin yetişməsinə töhfə verdiyini vurğulayıb və konfransın işinə uğurlar arzulayıb.

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru akademik Teymur Kərimli sıravi həkimlikdən akademik zirvəsinə ucalan Zərifə xanım Əliyevanın zəngin mənəviyyata sahib əsl ziyalı kimi mənalı ömür yolu keçdiyini, əhatəli elmi fəaliyyəti ilə ölkəmizdə tibb sahəsinin inkişafına əhəmiyyətli töhfələr verdiyini qeyd edib, onun elmi araşdırmalarının, alim kimi qazandığı böyük uğurların Azərbaycanın tibb elmi tarixində xüsusi yer tutduğunu vurğulayıb.

Plenar iclas məruzələrin dinlənilməsi ilə öz işinə davam edib. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, AMEA-nın vitse-prezidenti akademik İradə Hüseynova, Tibb Universiteti Oftalmologiya kafedrasının müdiri tibb elmləri doktoru, professor Paşa Qəlbinur, Milli Məclisin, tarix üzrə fəlsəfə doktoru Məlahət İbrahimqızı və başqaları çıxışlarında Zərifə xanım Əliyevanın mənalı və zəngin həyat yolundan nümunələr gətirərək, onun Azərbaycan cəmiyyətinə verdiyi töhfələrdən söz açıblar.

Konfrans məruzə ətrafında çıxışlarla öz işinə davam edib.

***Qabil YUSİFOĞLU***
***XQ***

Xalq qəzeti.- 2024.- 30 aprel, № 87.- S.10.